**16.03.2023: xəbər**

**Presentation of "Huma gushu" Foundation**

On March 10, 2023, the presentation of the "Huma gushu" Educational Charity Fund was held at Khazar University. University faculty, students and media representatives took part in the event.

The fund was established to keep alive the memory of Humay Vilayat Guliyeva, an employee of the International Committee of the Red Cross, who tragically lost her life while working for the Committee in the city of Medellin, Colombia, and to continue her humanitarian activities.

Rector of the university, Irada Khalilova, spoke about the intersection of the goals of the Foundation and the university in the field of education and charity, and evaluated the activity of public institutes and charity funds that provide assistance to education as an investment in the future.

A documentary film about Humay was shown at the event, with the memories of her friends and colleagues.

At the event, Shahla Vazirova, Humay's mother, the president of the "Huma gushu" Foundation, and Leyla Tagizadeh, the member of the Foundation's Board of Trustees, spoke about the educational support and scholarship programs of the Foundation, the support given to veterans and students with limited financial means during its activity, and future plans, including 2023 Master's Scholarship Program. The representative of the "Huma gushu" Foundation Saida Abdullayeva spoke about the impact of the opportunities provided by the foundation on the lives of veterans and the opportunities for integration into society. The event continued with answering questions from the audience.

Note that detailed information about the activities of the Foundation and the application form for participation in the programs are posted on the Facebook page of the Foundation and on the humagushu.az website.

**“Huma quşu” fondunun təqdimatı**

2023-cü il martın 10-da Xəzər Universitetində “Huma Quşu” Təhsilə Yardım Fondunun təqdimatı keçirilib. Tədbirdə universitetin professor-müəllim heyəti, tələbələr və media təmsilçiləri iştirak edib.

Fond Beynəlxalq Qırmızı Xaç Komitəsinin əməkdaşı, Komitə xətti ilə Kolumbiyanın Medelin şəhərində çalışdığı zaman faciəli şəkildə həyatını itirən Humay Vilayət qızı Quliyevanın xatirəsini yaşatmaq və humanitar fəaliyyətini davam etdirmək məqsədi ilə yaradılıb.

Universitetin rektoru İradə Xəlilova Fondun və universitetin təhsil və xeyriyyəçilik sahəsində hədəflərinin kəsişmə nöqtələrindən danışıb, təhsilə yardım göstərən ictimai institut və xeyriyyə fondlarının fəaliyyətini gələcəyə investisiya kimi dəyərləndirib.

Tədbirdə Humay haqqında çəkilmiş, dostlarının və həmkarlarının xatirələrinin yer aldığı sənədli film nümayiş etdirilib.

Tədbirdə “Huma quşu” Fondunun prezidenti, Humayın anası Şəhla Vəzirova və Fondun Himayəçilik Şurasının üzvü Leyla Tağızadə Fondun təhsilə dəstək və təqaüd proqramları, fəaliyyət göstərdiyi müddət ərzində qazilərə və maliyyə imkanı məhdud tələbələrə təhsilə yardım istiqamətində verilmiş dəstək və gələcək planlardan, o cümlədən 2023-cü ilin magistr təqaüd proqramından danışıblar.

“Huma Quşu” Fondunun nümayəndəsi Səidə Abdullayeva fondun təqdim etdiyi imkanların qazilərin həyatına təsirindən və cəmiyyətə inteqrasiya imkanlarından danışıb. Tədbir auditoriyanın suallarının cavablandırılması ilə davam edib.

Qeyd edək ki, Fondun fəaliyyəti barədə ətraflı məlumat və proqramlarda iştirak üçün ərizə forması Fondun *Facebook* səhifəsində və humagushu.az saytında yerləşdirilib.


PUMA




Sən ki, Huma quşusan,
şərəfli iş gör, əlbət
Nizami Gəncəvi, «Sirlər xəzinəsi»


şərəfli iş gör, əlbət
Nizami Gəncəvi, «Sirlər xəzinəsi»
Khazar
University




Khazar
University










HUMA QUŞU
FONDUNUN
TƏQDİMATI
10 MART
SAAT 16:00
XƏZƏR UNİVERSİTETİ
MƏHSƏTİ 41
OTAQ 102N

z